Müstəqil ictimai-siyasi, publisistik qəzet № 10 (1090) 09 mart 2022-ci il Kredo Qəzet 1999-cu ilin oktyabrından çıxır

# 8 MART BEYNƏLXALQ QADINLAR GÜNÜDÜR

# CƏMİLƏ ÇİÇƏYİN HEKAYƏ GÜLLƏRİ



## Hər çiçəyin öz ətri var

Ədəbi mühitimizdə bir Cəmilə Çiçək var. Alimdir, şairdir, publisistdir və s. Ədəbi və sosioloji tədqiqatları ilə tanınır. Dastan toplayıcısı kimi dövrün ədəbi düşüncəsinin diqqət mərkəzindədir. "Səməd Vurğun - Aşıq Şəmşir dastanı", "Əyyub və Sənəm dastanı", "Fəzli və Məhliqa dastanı"... "Kəlbəcərin saz qalası", "Arı çiçəyə gəlib", "Sən dağlardan ayrılmadın", "Sazımız ağlayır dağlar başında"... kimi bədii-ədəbi publisistik kitabların müəllifidir.

Cəmilə Çiçək sözdən şirə çəkməyi elə bil ki, bal arısından əxz edib. Yaxşı müşahidə imkanları var.

Gənc müəllifin hekayələrini nəşr edirik. Bu hekayələrdən aldığım ilkin təəssürat budur ki, onun üçün həyatın hər anı bədii lövhə yaratmaq üçün təbii mənzərədir. Sərrast, dəqiq, eyni zamanda emosional, hissi duyğuları ilə gözünün önündən keçən mənzərəni elə təbiiliyi ilə yazısına gətirə bilir. Onun "Quşcuğaz, çiçəklər və bir nəfər", "İki yetim", "Bulaqda qalan səhəng", "Cəza", "Məhəbət alovu" kimi hekayələri az sözlə bitkin lövhə yaratmaq nümunələridir. Onun ədəbi qəhrəmanları ruhunun paklığı ilə seçilən gənclər, yeniyetmələr, duyğulu uşaqlar, hətta qayğıya möhtac bir quşcuğaz, daha kimlər, kimlər... oxucunun yaddaşına yazılmaq gücündədir. Zənnimcə, bu da onunla bağlıdır ki, Cəmilə Çiçək mövzu axtarmır. Elə bil ki, o, həyatını yaşadıqca mövzular özlərinə doğma olan müəllifi gördükləri üçün onun başına toplanır, onu əhatəyə alır. Bəlkə də onun ruhunda "məni yaz" deyə elə onun özü kimi məhsun baxışlarla Cəmilə Çiçəyin qələminin ucunacan atan mövzuların sayı yoxdur.

Cəmilə Çiçəyin hekayələrinin bahar çağıdır. Yaz qabağı torpaqdan qalxan təzə-tər çiçəklər kimi onun hekayələri oxucu gözünü oxşayır. Bu yazıların səssiz, iddiaız bir istəyi var; biz gəlirik, biz Cəmilə Çiçəyin hekayə çiçəkləriyik.

Hər çiçəyin öz ətri var, rəngi var, öz təravəti var. Cəmilə Çiçəyin də hekayələri onun sözə sevdalı könlünün barı, bəhrəsi kimi dünyaya gəlir.

*Əli Rza Xələfli*
*08.03.2022*